# Tarixi qələbənin təntənəsi

***Azərbaycanın tarixi zəfər salnaməsində 2020-ci ilin Vətən müharibəsi əvəzolunmaz bir mərhələdir. Bu zəfər təkcə ərazi bütövlüyünün bərpası deyil, həm də Azərbaycan xalqının öz suverenliyinə olan əzminin göstəricisi, dövlətin müstəqilliyini möhkəmləndirən bir təkan oldu. Müharibənin nəticələri Azərbaycanın beynəlxalq arenadakı mövqeyini daha da gücləndirdi, xalqın milli kimliyini yenidən təsdiq etdi və uzun illərdən bəri davam edən erməni işğalına son qoydu.***



Bu qələbə, ilk növbədə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan Silahlı Qüvvələrinin yüksək hazırlığı nəticəsində mümkün oldu. Dövlət başçısının həm döyüş meydanında, həm də diplomatik masada göstərdiyi qətiyyət Azərbaycanın haqlı mövqeyinin tanınmasına və bütün dünyaya sübut olunmasına səbəb oldu. Əldə edilən zəfər həm də ordumuzun, xalqın və liderin vahid bir cəbhədə birləşməsinin mükəmməl nümunəsi idi. Belə ki, xalqın iradəsi, ordunun şücaəti və liderin qətiyyəti nəticəsində Azərbaycan işğalda olan torpaqlarını azad etməklə bərabər, regionda yeni geosiyasi reallıqlar yaratdı.

Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi yalnız hərbi zəfər yox, Azərbaycan xalqının onilliklər boyu yaşadığı tarixi ədalətsizliyə son qoyan bir qələbə idi. Ölkəmiz öz suverenliyini tam bərpa edərək işğal altındakı ərazilərin hər qarışını geri aldı. Şuşanın işğaldan azad olunması həm də mənəvi bir qələbə idi - bu şəhər Azərbaycan mədəniyyətinin beşiyi, böyük dahi Üzeyir Hacıbəyli, Bülbül, Xurşidbanu Natəvan kimi dahilərin vətəni olaraq xalqımızın ruhunun ayrılmaz hissəsidir.

Bu zəfər Azərbaycan üçün təkcə torpaq məsələsi olmadı. Bu, milli qürur məsələsi idi. Qələbə ilə Azərbaycan sübut etdi ki, beynəlxalq hüquqla təsdiq olunmuş suverenliyini təmin etmək üçün lazım olan gücə sahibdir və heç bir təzyiq onu öz haqqından çəkindirə bilməz. Dünyanın dörd bir yanından gələn çağırışlara baxmayaraq, Azərbaycan öz milli maraqlarını üstün tutdu və haqq mübarizəsində qətiyyətli oldu.

Azərbaycanın əldə etdiyi qələbə təkcə ölkə daxilində deyil, bütün Türk dünyasında da böyük coşqu ilə qarşılandı. Bütün Türk dünyası, qardaş ölkələr, xüsusilə də Türkiyə bu tarixi zəfəri öz uğurları kimi qəbul etdilər. Bu, Azərbaycanın beynəlxalq müttəfiqləri ilə əlaqələrinin daha da möhkəmlənməsinə və dost ölkələrlə strateji əməkdaşlığının inkişafına şərait yaratdı. Müharibədən sonra başlayan bərpa və quruculuq işləri Azərbaycanın qarşısında yeni bir dövrün açıldığını göstərdi. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr bu torpaqların tamamilə yenidən dirçəldilməsinə yönəldilib. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi bu nəhəng işlər yalnız yerli deyil, beynəlxalq səviyyədə də diqqətlə izlənir. Bu bərpa işləri Azərbaycanın nə qədər güclü və qətiyyətli olduğunu bir daha dünyaya sübut edir.

Qarabağ münaqişəsinin illər boyu davam edən ədalətsizliyini sona çatdıran 2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi haqlarını bərpa edərək dünyaya öz gücünü nümayiş etdirdi. 2023-cü ilin sentyabrında ölkəmiz daha bir addım ataraq antiterror tədbirləri ilə öz tarixi ərazilərində suveren hüquqlarını tam şəkildə tətbiq etdi. Həmin günlər Vətən müharibəsinin davamı, suverenliyin və milli birliyin qəti ifadəsi oldu. Bu birgünlük əməliyyat həm Azərbaycan dövlətinin suverenliyinin təsdiqi, həm də xalqımızın haqlı mübarizəsinin yekun mərhələsi kimi yaddaşlarda qaldı. Əməliyyatın uğurunun əsasında duran amillərdən biri hərbi birliklərimizin peşəkarlığı və manevr qabiliyyəti idi. Komando bölmələri yüksək hərəkət qabiliyyətləri və təcrübələri ilə düşmən mövqelərinin dərinliklərində sürətli və təsirli hücumlar həyata keçirdi. Mexanikləşdirilmiş və motoatıcı bölmələr düşmənin möhkəmləndirilmiş mövqelərini yarıb keçərək irəlilədi və əraziləri nəzarət altına aldı. Hərbi Hava Qüvvələrinin dəqiq zərbələri düşmənin mühüm strateji obyektlərini məhv etdi və bu da əməliyyatın uğurla nəticələnməsində həlledici rol oynadı.

Ötən il Xankəndidə keçirilən Zəfər paradı isə bu qələbənin gerçək ifadəsi idi. Həmin parad Azərbaycan Ordusunun hərbi gücünün və xalqın milli iradəsinin parlaq göstəricisi olaraq tarixə qızıl hərflərlə yazıldı. Suverenliyin tam bərpa edilməsi ilə Azərbaycan nəinki tarixi ədaləti bərpa etdi, həm də gələcək nəsillərə azad, güclü və müstəqil bir ölkə əmanət etdi.

Bundan sonra sosial və quruculuq sahəsində də böyük dəyişikliklər müşahidə olundu. Ölkəmizin ərazi bütövlüyünün tam bərpası təmin olunmaqla yanaşı, Qarabağ və Şərqi Zəngəzur bölgələrində sosial və infrastruktur layihələrinin sürətlənməsinə yeni bir təkan verildi. Azad edilmiş torpaqlarımızda həyat yenidən canlanmağa başladı.

Azərbaycanın hərbi zəfərindən sonra qazandığı çoxsaylı siyasi uğurlardan biri 2024-cü ildə həm Prezident, həm də Parlament seçkilərinin ölkənin bütün ərazisində, o cümlədən işğaldan azad edilmiş torpaqlarda keçirilməsi idi. Bu seçkilər Azərbaycanın bütövlüyünü, siyasi stabilliyini və demokratik prinsiplərə sadiqliyini bir daha sübut etdi. Uzun illər davam edən münaqişədən sonra ilk dəfədir ki, Qarabağ və Şərqi Zəngəzur bölgələrində vətəndaşlar azad iradələri ilə səs verə bildilər. Bu, təkcə texniki və inzibati bir uğur deyil, həm də dövlətimizin gücünün və ərazi bütövlüyünün əyani nümayişi idi.

Bu seçkilər Azərbaycan üçün siyasi bir mərhələ olmaqla yanaşı, regionda və beynəlxalq aləmdə də mühüm əhəmiyyət daşıyır. Çünki bu, təkcə Azərbaycanın daxili siyasətini formalaşdırmadı, eyni zamanda regiondakı yeni geosiyasi vəziyyətin yaranmasına da təsir göstərdi. Dövlətimiz bölgədə yaratdığı yeni reallıqlar sülh və əməkdaşlıq üçün mühüm zəmin hazırlayır. Prezident və Parlament seçkilərinin uğurla keçirilməsi Azərbaycan dövlətçiliyinin və xalqın birliyinin ən güclü göstəricilərindən biridir. Xalqın seçkilərə yüksək fəallıqla qatılması, milli maraqlara sadiqliyi, dövlətimizin gələcəyinə inamın ən parlaq təzahürüdür. Azərbaycanın



gücü təkcə onun hərbi və iqtisadi imkanlarında deyil, həm də xalqının birlik və bərabərlik içərisində öz taleyinə sahib çıxmasında, suverenliyini möhkəmlətməsindədir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**